# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ BƏRPASI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Asif Mehralıyev**

*AMEA-nın Mərkəzi Nəbatat Bağı*

Qarabağ Azərbaycanın cənub qərbində, Kiçik Qafqaz dağlarının şimal-şərqində yerləşməklə həm dağlıq, həm dağətəyi, həm də düzənlik qurşaqlarından ibarət geniş və münbit boz-şabalıdı torpaq tipinə, mülayim-subtropik iqlimə, bolsulu çaylara malik ecazkar bir bölgədir. Torpaq-iqlim şəraitinin əhəmiyyətli olması imkan verir ki, burada kənd təsərrüfatının bütün sahələrini (heyvandarlıq, əkinçilik, meyvəçilik, arıçılıq və s.) müvəffəqiyyətlə inkişaf etdirmək mümkün olsun. Məhz buna görədir ki, bütün dövrlərdə çoxsahəli oturaq əkinçilik, bağçılıq, maldarlıq bu bölgə əhalisinin əsas məşğulluq sahələrindən olmuşdur. Xüsusilə Kiçik Qafqazın geniş ərazili yüksək alp çəmənlikləri və aran zonasının qış otlaqları köçürülən heyvandarlıq üçün əlverişli şəraitə malikdir.

Bir faktı qeyd etmək kifayətdir ki, işğaldan əvvəl respublika üzrə k\t məhsulları istehsalının 35-40%-i məhz bu bölgənin payına düşürdü. Lakin 30 ilə yaxın bir dövrdə erməni işğalçıları tərəfindən Qarabağda əsl ekoloji terror törədilmiş və bütün kənd təsərrüfatı infrastrukturu dağıdılmışdır.

Bölgədə kənd təsərrüfatı sahələrinin yenidən dirçəldilməsi və perspektivləri baxımından bəzi təklifləri irəli sürürük.

- İşğaldan əvvəl bu bölgədə kənd təsərrüfatı sahəsində çalışmış mütəxəssislərin bilik və bacarığından maksimum istifadə olunmalıdır;
- Torpaq-iqlim şəraitinin elmi, innovativ üsullarla monitorinqi əsasında torpaqların təyinatı düzgün müəyyənləşdirilməlidir;
- Xalq seleksiyası nəticəsində yaradılmış yerli, çox qiymətli meyvə-tərəvəz və üzüm sortları bərpa edilməklə intensiv texnologiyalarla becərilməyə cəlb olunmalıdır;
- Növbəli əkin sistemi tətbiq edilməlidir;
- İşğaldan əvvəl fəaliyyət göstərmiş kənd təsərrüfatı məhsullarının emalı zavodları, aqrar sənaye müəssisələri yenidən yaradılmalıdır;
- Əhalinin məskunlaşmasını və kənd təsərrüfatı işlərinə cəlb edilməsini sürətləndirmək baxımından dövlət təchizat sistemi obyektiv şəkildə qurulmalıdır;
- Meliorasiya və irriqasiya sistemləri yaradılmalıdır;
- Bölgə üçün qeyri-ənənəvi kənd təsərrüfatı sahələri olan "örtülü sahə" tərəvəzçiliyi, balıqçılıq və arıçılıq sahələrinin inkişafı istiqamətində də tədbirlər görülməlidir.

Beləliklə, işğal edilmiş ərazilərdə elə bir sistem qurulmalıdır ki, həm bölgə əhalisinin məşğulluğu maksimum təmin edilsin, həm də ölkənin daxili bazarının xaricdən asılılığının minimuma endirilməsi üçün məhsul bolluğu yaradılsın.